## İşgüzar etika

***Etik normativlər***

Qəzetimizin keçən buraxılışında qeyd olunduğu kimi, işçilərin etik davranış səviyyəsinin yüksəldilməsi üçün dünyanın aparıcı şirkətlərinin qəbul etdikləri daha geniş yayılmış yanaşmalardan biri etik normativlərin hazırlanmasıdır. Etik normativlər etik dəyərlər və qaydaların məcmusu sistemini özündə birləşdirir. Təşkilat rəhbərinin fikrincə, onun bütün işçiləri öz fəaliyyətlərində bunları rəhbər tutmalıdırlar. Onlar təşkilatın məqsədlərinin təsvir edilməsi normal etik atmosferin yaradılması və qərarların qəbulu prosesində etik tövsiyələrin müəyyən edilməsi məqsədilə işlənib hazırlanır. Qeyd olunanlara əyanilik gətirmək üçün «Erikson» şirkətinin biznes etikası ilə bağlı əsas prinsiplərinin nəzərdən keçirilməsi məqsədəuyğun olardı.

Biz biznesin aparılmasında düzlük və etikanın ən yüksək səviyyəsinə olan öhdəliyi bölüşürük. Bizim biznesimizi hər zaman düzlük və etika səciyyələndirir. Güclü düzlük hissi ilə çalışmaq müştərilərimiz, tərəfdaşlarımız, işçilərimiz, səhmdarlarımız və digər maraqlı tərəflərlə etibar və inamın saxlanılmasında çox əhəmiyyətlidir. Biznesin aparılmasında şəffaflıq mühitini yaratmaq hər birimiz üçün çox mühüm məsələdir. Biznes etikası məcəlləmiz bazarda əməliyyatlarımızda və əlaqələrimizdə saflıq və düzgünlüklə işləməyimiz haqqında vədimizdir.

Biz hesab edirik ki, şirkət məcəllədə qeyd olunan prinsiplərə uyğun idarə olunacaq və hər kəs, Direktorlar Şurasının və icraçı heyətin üzvlərindən tutmuş hər bir Erikson işçisinə qədər, bu standartlara cavab vermək üçün məsuliyyət daşıyacaq.

Biznes etikası məcəlləmizdə fərdi və ekspert məsuliyyəti barədə qaydalar və həmçinin işçilərimizə, müştərilərimizə, təchizatçılarımıza, səhmdarlarımıza və digər maraqlı tərəflərimizə olan məsuliyyətlərimiz var və buraya aşağıdakılar daxildir:

- Qanunlara, qaydalara və nizamnamələrə uyğunluq (insayder treydinq qanunları daxil olmaqla);
- məxfi məlumatın, digər şirkət sirlərinin, müştərilərimiz və təminatçılarımızın məlumatının qorunması;
- şirkət aktivlərinin qorunması və düzgün istifadəsi;
- Biznes əməliyyatlarımızda insan hüquqlarına hörmət;
- maraqların toqquşmasına dair yanaşma;
- maliyyə hesabatlarında və digər ictimai əlaqələrdə tam, ədalətli, dəqiq, vaxtında olan və anlaşılan açıqlamaların təbliği;
- ətraf mühitin qorunması;
- Qanuna zidd, yaxud qeyri-etik davranışın qeydə alınmasını dəstəkləmək.